# ZİNKOKEHL® D3




## TƏRKİB:

1 ml durulaşdırılmış məhlulun tərkibində:
0,08 ml Zincum gluconicum D3.

**Digər komponentlər:** 15% etanol spirti

## FARMAKOLOJİ XÜSUSİYYƏTLƏRİ:

Sink orqanizmin mineral balansında mühüm rol oynayır. Qeyri-düzgün qidalanma və ya malabsorbsiya nəticəsində yarana bilən sinkin defisiti bir çox xəstəliklərə səbəb ola bilər. Sink superoksid- dismutaza fermentinin tərkib hissəsidir və bu ferment oksidləşmə-reduksiya prosesləri nəticəsində yaranan sərbəst radikalların yaranmasını və ya onların hüceyrədaxili dağıdıcı təsirinin qarşısını alır. Ümumiyyətlə, sink 300-dən çox fermentin tərkibinə daxildir. Zülalların sintezində (xüsusilə də birləşdirici toxumada), həmçinin, cinsi hormonların sintezində, spermatogenezdə, kişi cinsi vəzilərinin və ikincili cinsi əlamətlərin formalaşmasında iştirak edir. Prostat vəzidə gedən hipertrofik proseslərin qarşısını alır (5-α reduktazanın aktivliyini azaldaraq testosteronun dehidro-testosterona çevrilməsini ləngidir). Boy atma və cinsi yetişkənlik dövründə xüsusi əhəmiyyətə malikdir. Anticisimlərin sintezində, beləliklə də immun sisteminin normal fəaliyyətində iştirak edir.

## GÖSTƏRİŞLƏR:








- dəri xəstəlikləri (ekzema, akne)
- şəkərli diabet
- kişilərdə cinsi problemlər
- boy inkişafının ləngiməsi
- saç tökülməsi, dırnaq laylanması
- disbioz, xolesistit, pankreatit
- infeksiyalara meyillik
- sümüklərdə maddələr mübadiləsinin pozulması, məs., koksartroz, psevdoartroz, revmatik artrit, psoriatik artrit
- sonsuzluq
- yaraların gec sağalması
- vegetativ disfunksiyalar
- venaların trombozu və baldır xorası kimi xəstəliklər

# ZİNKOKEHL® D3




## İSTİFADƏ QAYDASI:

**Kəskin hallarda:** 5 damcı hər 30 dəq. və ya 1 saatdan bir gündə maksimum 6 dəfə (yeməkdən 30 dəq.əvvəl, yaxud, 1 saat sonra az miqdar su ilə).

**Xroniki halda:** 5 damcı gündə 1-2 dəfə

**Uşaqlar üçün dozalanma:** 2-3 damcı gündə 1-2 dəfə

Tərkibində spirt olduğuna görə alkoqolizm və qaraciyər xəstəliklərindən əziyyət çəkən xəstələrdə preparat həkim məsləhətindən sonra istifadə edilə bilər.

**Buraxılış forması:** damcı-flakon 30 ml



**İstehsalçı:** Sanum-Kehlbeck, GmbH & Co. Germany, Azərbaycanda SANUM-Kehlbesk-in ekskulyuziv distribyutoru **"PLANETA" şirkəti**

Tel/faks: 430 30 10, 430 07 17

E-mail: info@planeta.az www.btk.az www.facebook.com/bioloji.tababat